Ovqat

# Sözün ucalığında

*Şeirin cazibəsi həmişə oxuyanı özünə çəkir. Yerində, məqamında deyilən söz hədəfə - ürəklərə, duyğulara hopur.*

*Anar Baxışov hərbçidir. Cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət edir. Anar söz adamıdır, sözə hörmət edən, sözə tapınanlardandır. O, fikir və duyğularını, hisslərini şeirə hopdurmağı yaxşı bacarır. Vətənpərvərlik duyğusu, qələbə əzmi Vətənə, torpağa sevgi... onun şeirlərinin əsas qayəsidi. Qəzəlləri də sadəliyi və hikmət yükü ilə diqqəti cəlb edir.*



*Mayor Anar Baxışovun iki qəzəlini təqdim edirik.*

**"Azərbaycan Ordusu"**

Anaya can demişəm, canım üçün candır ana,
Övladə bu dünyadə doğma, mehribandır ana.

Ana varlıqdır, onun varlığına tay olmaz,
Ana safdır, yaradançün onu Rəhmandır, ana.

O, uca Tanrımızın bəxşişidir övlad üçün,
Balaya "can" deyərək canına can sandı ana.

O, mənim qollarımın, dizlərimin taqətidir,
Ürəkdə dövr eləyən damarımda qandır ana.

Gecə-gündüz ömrünü övladına həsr eləyib,
Yatmayıb an da belə, çox gözəl insandır ana.

Gözüm yox varda mənim, cahi-cəlal olsa belə,
İstəyim tək anadır, can sənə qurbandır, ana.

Ey Anar, vəzf eləyək doğma ana torpağı biz,
Ürəkdə hər sözümüz, Azərbaycandır, ana!

* * *

Sadə ol, sadəliyin hörməti hər an ucadır,
Sadəlik varsa əgər, o yerdə insan ucadır.

Düşünən haqq yolunu ruzi-bərəkət görəcək,
Gərəkir üz çevirək haramdan, xüsran ucadır.

Hörmət et, hörmətinin qiymətini el verəcək,
Lütfi-hörmət olana, hörməti ad-san ucadır.

Tut uca qamətini, əymə yerə başını sən,
Qaməti şux olan kəs görər ki, hər yan ucadır.

Qəlbimdə daim uca ata-ana rəğbəti var,
Ədnayi-övlad ilə cəfayi-giryan ucadır.

Ey Anar, sev Vətəni, çünki müqəddəsdi Vətən,
Duyuruq ruzigarın, Azərbaycan ucadır..!